# Azərbaycan-Türkiyə biznes-forumu

Noyabrın 4-də Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın Azərbaycana səfəri çərçivəsində Heydər Əliyev Mərkəzində Azərbaycanın İqtisadiyyat və Türkiyənin Ticarət nazirliklərinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Türkiyənin Xarici İqtisadi Əlaqələr Təşkilatının (DEİK) təşkilatçılığı ilə Azərbaycan-Türkiyə biznes-forumu keçirilib.

Forumda iki qardaş ölkənin hökumət nümayəndələri, qida, tikinti, nəqliyyat, logistika, sənaye, İKT, tekstil və digər sahələrdə fəaliyyət göstərən sahibkarlar iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, forumda çıxış edən Azərbaycanın Baş naziri Əli Əsədov Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu, sıx əməkdaşlıq və strateji müttəfiqlik münasibətlərinin hər iki dövlət başçısının yorulmaz səyləri nəticəsində bu gün ən yüksək zirvədə olduğunu vurğulayıb. Baş nazir ölkəmizdə yaradılan əlverişli investisiya mühiti barədə məlumat verərək bildirib ki, hazırda Azərbaycanda 5 minə yaxın Türkiyə şirkəti qeydiyyata alınıb və bu, xarici dövlətlər arasında ən yüksək göstəricidir. Qeyd edilib ki, biznes dairələrimizin birgə fəaliyyəti və sıx əməkdaşlığı Azərbaycan-Türkiyə münasibətlərinin daha da dərinləşməsinə və ölkələrimiz arasında ticarət dövriyyəsinin, investisiya qoyuluşunun artmasına töhfə verəcək. İqtisadi, ticarət, nəqliyyat və enerji sahələrində əməkdaşlığımız qarşılıqlı əlaqələrin inkişafında mühüm rol oynayır.

Qeyd edilib ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın şanlı Qələbəsindən sonra ikitərəfli əməkdaşlığımız üçün yeni imkanlar açılıb. Hazırda işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işləri geniş vüsət alıb və türk şirkətləri bu işlərdə yaxından iştirak edirlər.

Baş nazir iqtisadi əlaqələrin inkişafında Azərbaycan-Türkiyə Hökumətlərarası Komissiyasının səmərəli platforma olduğunu diqqətə çatdırıb və qeyd edib ki, bu gün komissiyanın Bakıda keçirilmiş 10-cu yubiley iclasında ortaq maraq doğuran bir çox sahələr üzrə məsələlər müzakirə edilib.

Türkiyənin Vitse-prezidenti Fuat Oktay biznes-forum iştirakçılarını salamlayaraq Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib, qardaş xalqlarımızı möhkəm mədəni-tarixi əlaqələrin birləşdirdiyini vurğulayıb. Vitse-prezident Azərbaycan-Türkiyə əlaqələrinin yüksək səviyyədə olduğunu, əməkdaşlığın genişləndirilməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin, aparılan danışıqların əhəmiyyətini qeyd edib. Diqqətə çatdırılıb ki, Azərbaycan-Türkiyə iqtisadi-ticarət əməkdaşlığı uğurla inkişaf edir, qarşılıqlı investisiya qoyuluşları həyata keçirilir, hər iki ölkənin iştirakı ilə enerji və nəqliyyat sahəsində qlobal və regional əhəmiyyətli meqalayihələr reallaşdırılır. Fuat Oktay biznes-forumun iqtisadi əməkdaşlığın genişləndirilməsi istiqamətində əhəmiyyətli olacağını vurğulayıb, sənaye, kənd təsərrüfatı, nəqliyyat-logistika, ticarət, müdafiə sənayesi və digər sahələrdə əlaqələrin inkişafı üçün geniş potensialı qeyd edib, biznes dairələrini daha fəal əməkdaşlığa, birgə investisiyaların yatırılmasına dəvət edib.

Forum çərçivəsində hər iki ölkənin dövlət qurumları və sahibkarlıq subyektləri arasında əməkdaşlığa dair 14 sənəd imzalanıb.

Biznes-forum iş adamları arasında ikitərəfli görüşlərlə davam edib, sahibkarlar əməkdaşlığın genişləndirilməsi və yeni əlaqələrin qurulması məsələlərini müzakirə ediblər.

Azərbaycan.- 2022.-5 noyabr.- S.3.